TURAL İSLAMOV
*Bakı Dövlət Universitetinin aspirantı*

# AZƏRBAYCANIN PARLAMENTARIZM TARIXINDƏN

Azərbaycanda parlamentarizm ənənələri öz köklərini, Rusiyada bu institutun inkişafı ilə demək olar ki, eyni tarixi xronikaya, çar Rusiyasında ilk parlament - Dövlət Duması yarandığı vaxta gedir. Parlamentarizmin tarixi Azərbaycanda bir sıra Avropa ölkələrindəki kimi çox əsrlik olmasa da öz milli xüsusiyyətləri və siyasi rəngarəngliyi ilə bu yüz ildə zənginləşmişdir. Milli parlamentarizm ənənəsinin yaranması, dövlətçilik və vətənpərvərlik ruhunda hərtərəfli formalaşması əsasən XX əsrin əvvəllərindən başlamışdır. Azərbaycanda seçilən və yaradılan parlamentlər digər ölkələrdəkinə nisbətən fərqli yol keçsə də müsəlman ölkələri içərisində özünəməxsus yerini tuta bilmişdi. Özünün keçdiyi tarixi təcrübədən bəhrələnmiş, formalaşmış, kifayət qədər özünün tanıdaraq başqa ölkələrin parlamentləri ilə inteqrasiyada öz xüsusi çəkisini artıra bilmişdi.

Bir əsr ərzində xalqımız müxtəlif adlarda fəaliyyət göstərən parlamentlərin qəbul etdiyi qanunların tələblərinə uyğun yaşamalı olmuşdur. Bu yüz ildə yaşadığı zamanına və siyasi xarakterinə görə Azərbaycan parlamentlərini üç qrupa bölmək olar. Birinci Rus imperiyası dövründə təşkil edilmiş parlamentlər – Dumalar, sovetləşdirmə zamanı yaradılmış parlamentlər və müstəqillik dövründəki parlamentlər. (6, S. 250).

Əsrin əvvəllərində Çar Rusiyasında yaranmış gərgin siyasi vəziyyət, burjuaziyanın, habelə liberalların hökuməti saxlamaq üçün, monarxiyanı xilas etmək üçün yeganə yolun xalq yığıncağının çağırılmasını göstərməsi çarizmi onlarla razılaşmağa vadar etdi. 1905-ci il 6 avqust tarixində çar II Nikolayın imzaladığı manifest ilə Duma məşvərətçi nümayəndəli orqan kimi yaradıldı. (10, s. 30-31). Həmin ilin 17 oktyabr manifesti ilə isə qanunverici orqan hüququ aldı. (10, S. 73). Beləliklə də, 1905-ci il 11 dekabrda çarın Dumaya seçkilər haqqında fərmanı imzalandı. (11, S. 39) . 1906-cı ilin 20 fevral tarixində isə Dumanın fəaliyyətini özündə əks etdirən nizamnamə qəbul edildi. Həmin nizamnaməyə əsasən Duma 5 illiyə seçilirdi və çar istədiyi zaman Dumanı növbədənkənar buraxmaq hüququna malik idi. Duma hökumət tərəfindən ona göndərilən təkliflərə baxıb qanun qəbul edə və dövlət büdcəsini təsdiqləyə bilərdi. (9, S. 5 s.)

Öz fəaliyyətinə 1906-cı il aprel ayının 27-dən başlayan I Dövlət Dumasının tərkibinə, beş ali təhsilli azərbaycanlı deputat seçildi: Əlimərdan bəy Topçubaşov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov, İsmayıl xan Ziyadxanov və Əbdürrəhman bəy Haqverdiyev. (8, S. 233.)

Bakı quberniyasından I Dövlət Dumasına seçilən Ə. Topçubaşov tezliklə Dumanın ən fəal deputatlarından biri olur. (7, S. 105). Azərbaycan deputatları 36 nəfərdən ibarət olmalı müsəlman fraksiyasına daxil oldular. Bu fraksiya 1906-cı il iyun ayının 21-də I Dövlət Dumasında olan müsəlman deputatları bir yerə yığılaraq Dumanın «müsəlman fraksiyası»nı yaradır və fraksiyanın 7 nəfərdən ibarət bürosunu seçirlər. Azərbaycandan Ə. Topçubaşov və Ə. Ziyadxanov həmin büroya daxil olurlar. Ə. Topçubaşov isə həmin fraksiyanın sədri seçilir. Sədr seçkiləri zamanı isə fraksiya 22 nəfərdən ibarət olmuşdur. Belə ki, Qırğız vilayətind□n, Türküstan məmləkətindən, Fərqanə, Sırdərya, Dağıstan və digər vilayətlərdən olan müsəlman deputatlar hələ gəlib çıxa bilməmişdilər. (11, S. 42-43).

Azərbaycan milli ziyalılarının görkəmli nümayəndələri olan deputatlarımız, çar rejiminin zülmü altında inləyən milyonlarla müsəlman əhalisinin tələblərini həyata ke-

çirmək və öz milli ideyalarını irəli sürmək üçün müvafiq cəhdlər göstərərək üçün Rusiya Dövlət Dumasından istifadə edirdilər. (3, S. 56).

Dövlət Duması məhdud xarakter daşıdığına baxmayaraq, heç şübhəsiz, orada parlament demokratiyasının müəyyən elementləri var idi. Deputatlar burada açıq çıxış etmək hüququna malik idilər. (4, S. 56).

Azərbaycanlı deputatlar Duma tribunasından çıxış edərək Rusiya imperiyasının Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı yol verilən ayrı-seçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə halına salındığını bütün açıqlığı və kəskinliyi ilə tənqid edir, yalnız azərbaycanlıların deyil, bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər. (4, S. 113).

I dövlət Dumasında Ziyadxanovun söylədiyi tarixi nitq buna misal ola bilər. O böyük cəsarət göstərərək Rusiyanı birbaşa işğalçı belə adlandırmaqdan çəkinməmişdir. Bundan əlavə o, öz çıxışında hökumətin maarif sahəsində gördüyü işləri kəskin tənqid etmiş, dövlət idarəçiliyində müsəlman yerli əhalisinin sıxışdırılmasını, dövlət idarəçiliyində rüşvət və ədalətsiz cəza hallarının olmasını kəskin olaraq qeyd etmişdir. (2, S. 126-130).

Birinci Dumanın fəaliyyəti iyulun 9-da parlamentin iclasları keçirilən Tavriçeski sarayında dayandırıldı. Ölkə daxili mübarizələrin kəskinləşdiyi şəraitdə çar hökuməti Dövlət Dumasını saxlamağı təhlükə saydı və onun buraxılması haqqında qərar verdi. Deputatlar sonradan Vıborq şəhərində 2 günlük iclas keçirməyi qərar aldılar və nəticədə 167 Duma üzvü olan deputatlar, o cümlədən, İ.Ziyadxanov və M.Ə. Topçubaşov üç aylıq həbs cəzasına məhkum edildilər və gələcəkdə Dövlət Dumasının tərkibinə seçilmək hüququndan məhrum oldular. (6, S. 22-32). Ə.Topçubaşov həm də «Kaspi» qəzetinin rəhbərliyindən də uzaqlaşdırıldı. (1, S. 214).

1907-ci il fevralda yaradılan II Dövlət Dumasında da həmçinin altı azərbaycanlı – deputatlar iştirak edirdilər: Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev, Məmmədağa Şahtaxtinski, Mustafa Mahmudov və Zeynal Zeynalov. Bununla belə, F. Xoyskini və X. Xasməmmədovu Dumanın büro tərkibinə də seçmişdilər. Lakin, bu Dumanın təşkili də qısa zaman yaşadı, həmin ilin iyununda öz fəaliyyətini dayandırdı. (11, S. 53). Qeyd etmək istərdik ki, I və II Dumaya Qafqazdan bütövlükdə 32 mandat yeri ayrılmışdı. (tomskhistory.lib.tomsk.ru).

Əvvəlki Dumada olduğu kimi, yeni seçilmiş azərbaycanlı deputatlar müsəlman fraksiyasına daxil olmuşdular. Qeyd edək ki, II çağırışda müsəlman fraksiyası 30 deputatdan ibarət olmuşdur. (tomskhistory.lib.tomsk.ru). Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov müsəlman fraksiyasına və büroya seçilmişdilər. Fraksiyanın işində Əlimərdan bəy Topçubaşov çox fəal iştirak edirdi. O dəfələrlə Peterburqa gəlib və fraksiyanın iclaslarında iştirak edir, bir neçə dəfə də iclasın gedişinə həmsədrlik etmişdi. (11, S. 56-57).

Müsəlman fraksiya 11 bölmədən ibarət proqramını ayrıca broşüra şəklində çap etdirmişdi. Proqramda qoyulmuş əsas məsələlər petisiyalarda verilmiş məsələlərlə demək olar ki, eyni idi. 1907-ci il fevralın 20-də öz işinə başlayan II Dumada müzakirəyə çıxarılan əksər məsələlər hələ də öz həllini I Dumanın fəaliyyətində tapmamışdı. (11, S. 57). Müsəlman fraksiyası ilə bərabər Azərbaycandan olan deputatlar Xalq Azadlığı Partiyasının, Dumadakı komissiyaların fəaliyyətinin çoxunda iştirak edirdilər. (1, S. 207-221).

Qeyd etmək istərdik ki, deputatlarımızın Dumanın fəaliyyətində, komissiyalarda və şöbələrdə fəal iştirakı artıq gələcəkdə yaranacaq olan parlamentçilik ənənələrinin köklərini qoyurdu.

II çağırış Dövlət Dumasının Maliyyə komissiyasının 33 deputat üzvündən biri Fətəli xan Xoyski idi. (12, S. 45). Bundan əlavə Fətəli xan Xoyskinin başçılığı altında yerli dairələrdən və quberniyalardan gələn gəlirlərin və xərclərin 3 illik 1907 - 1909-cu illər üçün təyin etmək üçün komissiya yaradılmışdı. (12, S. 52).

Xoyskinin komissiyaların fəaliyyətində fəal iştirakı, ermənilərin, qafqazdakı canişinlərin rolu ilə Yelizavetpol və İrəvan quberniyalarında seçkiləri iki əhali arasında ayrı-ayrılıqda keçirmək istəklərini alt-üst etdi. Xoyski öz çıxışında qeyd etmişdi ki, bu seçki məsələsi Dumanın gündəminə gələrsə əgər, onda ən birinci əhalinin könüllülük prinsipi əsasında həyata keçirilməli, ikincisi isə eyni bir vilayət, ölkə daxilində ayrı-ayrı seçkilərin keçirilməsinin də heç bir hüququ əsası olmadığını bildirmişdi. (13, S. 97-98).

Digər deputatlarımız X. Xasməmmədov isə dövlət gəlirlərinin və xərclərinin təyin edilməsi komissiyasında fəaliyyət göstərən 33 deputatdan biri idi.(12, S. 57). 99 nəfər deputatı olan Aqrar komissiyanın tərkibində isə Məmmədağa Şahtaxtinski fəaliyyət göstərirdi. (12, S. 70).

Aqrar Komissiyanın 1907-ci il 14 aprel tarixli qərarı ilə torpaq məcəlləsi qanunu həll etmək üçün 18 nəfərdən ibarət alt komissiya yaradılmışdı. Həmin komissiyaya Z. Zeynalov da daxil edilmişdi. Həmin ilin may ayının 2-də isə komissiyaya daxil olan təkliflərin araşdırılması üçün alt komissiya yaradıldı. Həmin alt komissiyalardan birincisinə Z. Zeynalov (12, S. 77), ikincisinə isə həm Z. Zeynalov həm də, Məmmədağa Şahtaxtinski daxil oldular. (12, S. 83).

Z.Zeynalovun 1907-ci il martın 9-u II sessiyanın 7-ci iclasında çıxışında maraq doğurur. Belə ki, o çıxışında qeyd etmişdi ki, üzvü olduğu komissiyanın deputatları bir neçə qruplaşmalara ayrılıblar və belə olduqda hər hansı bir qərarın yekdilliklə qəbul olunması problemi üzə çıxırdı. Bununla əlaqədar olaraq o yeni komissiyalar yaradılanda qrup daxili ixtilafları nəzərə almağı təklif edirdi ki, gələcək qərarlarda fikir ayrılığı olmasın. (13, S. 311). Deputatlarımızın parlamentin işinə bu dərəcə diqqətli yanaşma prinsipi, bir daha onların güclü idarəçilik və parlamentarizm ənənələrinə yiyələnməsini sübut edir.

Məmmədağa Şahtaxtinski isə öz çıxışlarında Yelizavetpol quberniyasında, Naxçıvan və Zəngəzur mahallarında insanların sosial durumunun ağır olmasını və tezliklə ilk olaraq bu regiona yardım edilməsi təklifi ilə bir daha deputatlarımızın vətənpərvərlik təəssübkeşliyi özünü göstərdi. (13, S. 215).

1907-ci il 20 martda 33 nəfərdən ibarət şəxsiyyətin, yaşayışın, sirli məlumatların toxunulmazlığı ilə məşğul olan komissiya yaradıldı. Bu komissiyaya Fətəli xan Xoyski seçilmişdi. Həmin komissiyanın tərkibində yaradılmış 4 alt komissiyadan 2 nə II və IV alt komissiyalara da həmçinin Xoyski daxil olmuşdu. (12, S. 89). Bundan əlavə 1907-ci ilin 1 iyun tarixində 55 Duma üzvünün Ədliyyə Nazirliyinin müraciəti ilə ilkin istintaqa cəlb etmək məqsədi ilə komissiya yaradıldı. Həmin komissiyanın katibi vəzifəsinə Fətəli xan Xoyski seçildi. (12, S. 177).

Dumanın əlli beş nəfərdən ibarət olan Xalq Təhsili komissiyasına M.Mahmudov üzv seçilmişdi. (12, S. 141). Həmin komissiyanın tərkibində yaradılmış 5 alt komissiyadan I, III və V alt komissiyalarına da M.Mahmudov daxil idi. (12, S. 142). Yerli idarəetmə və özünü idarəetmə komissiyanın 33 nəfərdən ibarət üzvündən biri də X.Xasməmmədov idi (12, S. 147). X. Xasməmmədov həmçinin alt komissiyalarda da fəaliyyət göstərirdi. (12, S. 148). Belə ki, Dumaya daxil olan sorğulara baxılması üçün 18 deputatdan ibarət yaradılmış komissiyada X.Xasməmmədov fəaliyyət göstərirdi. (12, S. 173). Aclıqdan əziyyət çəkən insanlara kömək etmək üçün 1907-ci ilin 9 mart tarixində yaradılmış 33 deputatdan ibarət olan Ərzaq Komissiyasının tərkibində bir deputat Məmmə-

dağa Şahtaxtinski daxil olmuşdu. (12, S. 157). İşsizlərə kömək məqsədi ilə yaradılmış 19 deputatdan ibarət komissiyaya M. Mahmudov daxil edilmişdi. (12, S. 163).

Azərbaycandan olan deputatların bütün Rusiyanın müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin çarizmi vahiməyə salması və digər səbəblərlə yanaşı, I və II Dövlət Dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də III Dövlət Dumasına seçkilər zamanı müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmişdi. (5, S. 32). Elə həmin səbəbə görə də, əvvəlki Dumalardan fərqli olaraq, III Dövlət Dumasında bütün Cənubi Qafqazın müsəlman əhalisini yalnız bircə nəfər deputat – Xəlil bəy Xasməmmədov təmsil edirdi. (4, S. 113). Dövlət Dumasının seçkilər haqqında əsasnaməyə əsasən Bakı, Yelizavetpol, İrəvan quberniyaları üçün ümumi olacaq seçki yığıncaqlarında seçkilərin keçirilməsinə nəzarət Yelizavetpol qubernatoruna həvalə olunmuşdu. Seçkilərin keçirilməsinə aid olan yığıncaq Yelizavetpol şəhərində çağırıldığından III Dövlət Dumasına deputat Xəlil bəy Xasməmmədov Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən deputat seçilmişdi. Erməni əhalisini təmsil edən İ.Saqatelyan (daşnak) (14, S. 3) və rus əhalisinin nümayəndəsi F. Timoşkin (ifrat sağ) Dumaya Qafqazdan deputat seçilmişdilər. (11, S. 75).

1907-ci il noyabrın 1-dən 1912-ci il iyunun 9-dək fəaliyyət göstərən III Dövlət Duması əvvəlki Duma buraxılarkən dərc olunmuş seçki qanununa əsasən keçirilmişdir. Yeni seçki qanununa görə Duma üzvlərinin sayı 524-dən 442-yə endirilmişdi. Yeni seçki qanunu elə tərtib olunmuşdu ki, fəhlə və kəndlilərin nümayəndələri hesabına mülkədarlardan və iri sahibkarlardan olan seçicilərin sayı xeyli artırılmışdı. Qafqaza verilən deputat yerləri azaldılmış, Orta Asiya, Yakutiya və bəzi başqa milli rayonların əhalisi Dövlət Dumasına nümayəndə seçmək hüququndan məhrum edilmişdi. (11, S. 70).

III Dumaya seçkilər zamanı əhalinin yalnız 15 faizinin seçki hüququ var idi. Seçkilərin keçirilməsi üçün Qafqazda seçki dairələri yaradılmış və seçkilər milli əlamətlərə görə fərqləndirilmişdi. Seçkilər silklər üzrə seçilirdi: torpaq sahiblərindən, şəhər seçicilərindən və kənd dairələri yığıncaqlarından. Torpaq sahiblərinin seçki qurultaylarında ildə azı 30 rubl torpaq rüsumu ödəyən şəxslər iştirak edirdi. Yeni seçki qrupuna əsasən Bakı şəhərinə deputat yeri verilməmişdi. Bakı, Yelizavetpol və İrəvan quberniyalarına 6 deputat yeri əvəzinə 2 yer, Zaqafqaziyanın rus əhalisinə ayrıca bir deputat yeri verilmişdi (11, S. 70-71).

Üçüncü çağırış Dumada müsəlman deputatları müsəlman fraksiyası kimi yox digər nümayəndələr kimi 8 müsəlman deputatdan ibarət bir qrup halında fəaliyyət göstərirdi (16). Xəlil bəy Xasməmmədov da bu qrupa daxil idi və həmin qrupun siyahısında familiya sıralanmasına görə səkkizinci idi. (14, S. 14). Xasməmmədov I olaraq III çağırışda amnistiya məsələsinin müzakirəsini təklif etmiş və onun qanunvericilik yolu ilə həllini tələb etmişdi. (1, S. 217). Bundan əlavə o Dumanın daimi olmayan 33 deputatdan ibarət olan sorğu (14, S. 29) və 66 üzvdən ibarət olan köçürmə komissiyasının (mühacirət) üzvü idi. (14, S. 31), X. Xasməmmədov isə digər 55 üzvdən ibarət məhkəmə islahatları, (14, S. 36) və 18 nəfərdən ibarət imperator qanunlarının təkmilləşdirilməsi komissiyasında fəaliyyət göstərirdi. (14, S. 39).

1907-ci il noyabrın 1-də açılan III Dövlət Dumasında 8 daimi komissiya və 25-dən çox alt komissiya yaradılmışdı. Qeyd etmək lazımdır ki, III Dumanın deputatı olmayan Ə.M.Topçubaşov Müsəlman qrupasına bürosuna başçılıq etmiş, qanun layihələrinin hazırlanmasına yaxından iştirak etmiş və rus imperiyasında yaşayan 20 milyon müsəlman əhalisinin həmrəy olduğunu nümayiş etdirmişdir. (11, S. 77-78). Dumanın fəaliyyətində müsəlman qruppası qadınlarla kişilərin hüquq bərabərliyi məsələsini də qaldırmışdı.

III çağırışda X. Xasməmmədov Dumanın imperatora müraciət hazırlayan, sorğular, köçürmə işi, məhkəmə islahatı üzrə komissiyaların üzvü seçilmişdi. Dumanın açılışı günü imperatora müraciət hazırlayan 18 nəfərin içərisində X. Xasməmmədov daxil olmuşdu. Çarın 1912-ci il 9 iyun fərmanına görə III Dövlət Dumasının iclasları dayandırıldı, beləliklə də dörd il yarımdan çox ömür sürən Duma öz sələflərindən xeyli artıq yaşaya bildi. (6, S. 36-40).

IV Dumaya seçkilər 1912-ci ilin sentyabr – oktyabr aylarında keçirildi. 1912-ci il 20 oktyabrında Azərbaycandan M. Y Cəfərov kadetlərdən, M.Papacanov sağ kadetlərdən, M. Skobelev isə ruslardan (Tiflisdə seçilirdi) IV Dumaya seçildilər. (11, S. 96). Öz çıxışlarını konkret faktlarla zənginləşdirmək üçün Məmməd Yusif Cəfərov 1913-cü ilin aprelində Bakı, Quba, Muğan və başqa yerlərdə öz seçiciləri ilə görüşmüşdü. (1, S. 220). Bu görüşün keçirilməsi artıq deputatlarımızda parlamentarizm sistemində seçicilərin rolunu və onlarla görüşün əhəmiyyətini bir daha əks etdirir. IV Dumada M.Y.Cəfərov 67 nəfərdən ibarət büdcə daimi komissiyasının və 33 nəfərdən ibarət Köçürmə komissiyanın (sonradan sessiyanın gedişində komissiyaya 14 deputatda əlavə olunub) (15, S. 218) üzvü idi. Həmin komissiya Dumanın nizamnaməsinə əəasən dövlət strukturlarının gəlir və xərclərinə baxır və müəyyən edirdi. (15, S. 6). Həmin komissiyada o gömrük rüsumundan gələn vergi və gəlirləri müəyyən edən 3 deputat üzvdən və sərhəd korpusu mühafizəsi şöbəsində isə 2 üzvdən biri idi. (15, S. 10). Bundan əlavə M.Y.Cəfərov 20 nəfərdən ibarət Xalq Maarifi nazirliyinə (15, S. 11) və 7 deputat üzvdən ibarət Köçürmə idarəsinin gəlir və xərclərini müəyyən edən şöbələrdə fəaliyyət göstərirdilər. (15, S. 14).

Şimali Azərbaycan Rusiya ağalığı dövründə Rusiyanın və Rusiya vasitəsi ilə Qərbin yeni demokratik dövlət quruculuğu ənənələri ilə - parlament mədəniyyəti ilə yaxından tanış ola bilmişdi. Azərbaycan ziyalılarının mühüm bir hissəsi, o cümlədən Əlimərdan bəy Topçubaşov başda olmaqla peşəkar hüquqşünaslar Rusiyanın Dövlət Dumalarında zəngin parlamentçilik təcrübəsi qazanmışdı. Onlar nifrət etdikləri və qəddar milli müstəmləkə zülmünün hökmranlıq etdiyi Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların hökmran olduğu ən demokratik respublika sistemi yaratmağa qadir idilər. (4, S. 114). Vaxt keçdikcə aydınlaşırdı ki, mütləqiyyətin hakim olduğu bir şəraitdə heç bir islahat həyata keçirilməyəcəkdir. Ona görə də bir sıra fraksiyalar 1915-ci ilin avqustunda «Mütərəqqi Blok»da birləşməli olmuşdu. Müsəlman fraksiyası da buraya daxil edilmişdi. Bloka Xalq Azadlığı Partiyasının sədri P. Milyukov rəhbərlik edirdi. Bloka daxil olan 236 deputatın təklifi ilə ölkədə xalqın etimadını qazanmış nümayəndələrdən ibarət koalision hökumət yaratmaq qərara alınmışdı. (11, S. 114).

I dünya müharibəsi dövründə Dumanın fəaliyyəti çox çətin bir şəraitdə həyata keçirdi. Bundan əlavə 1917-ci ilin fevralında Rusiyada çoxəsrlik mütləqiyyət quruluşu devrilməsi ümumilikdə Dumanın işinə və gələcək fəaliyyətinə çətin təsir göstərdi. Yaranmış Müvəqqəti hökumətin qərarı ilə mart ayında Duma üzvlərindən ibarət «Cənubi Qafqaz Xüsusi Komitəsi» təşkil edildi. Məmməd Yusif Cəfərov da Komitəyə daxil edilmişdi. (1, S. 221). Lakin bu komitədə bütün səylərə və çalışmalara baxmayaraq parlament kimi fəaliyyət göstərə bilmədi. (11, S. 118). Bolşeviklərin hakimiyyətə gəldiyindən sonra parlament tipli qanunvericilik orqanlarının mütərəqqiliyi inkar edilirdi. Parlamentarizmin «tarixi şərtiliyindən», onun sovet hakimiyyəti üçün qəbuledilməzliyi hər zaman bildirilmişdir.

Rusiya Dumalarında azərbaycanlı deputatların parlament fəaliyyəti tarixinin öyrənilməsi bir daha göstərir ki, onlar deputat olduqları müddətdə xalqımızı yüksək səviyyədə təmsil etmişlər. Deputatlarımız o dövrdə cəmiyyəti narahat edən bütün məsələ-

ləri, xüsusən çarizmin imperiyada yaşayan müsəlmanların başına açdığı fəlakətləri Duma tribunasından böyük cəsarətlə bəyan etməklə bir daha sübut etmişdilər ki, ölkədə islahatların keçirilməsi zəruridir. Digər tərəfdən, deputatlarımızın son dərəcə gərgin əməyi, bizim fikrimizcə, heç də hədər getməmişdi. Onların əldə etdikləri böyük parlament təcrübəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yüksək dövlət vəzifələrində işləyən həmin deputatların səmərəli fəaliyyət göstərməsi üçün faydalı olmuşdur. (1, S. 221).

XX əsrin əvvəllərində imperiya tabeliyindəki Azərbaycanda da siyasi sabitliyin olmaması «Parlamentlərin həyatına» öz mənfi təsirini göstərmişdir. Həmin səbəbdən də Rusiya Dövlət Dumalarının hər biri bir neçə ay, Zaqafqaziya Seymi üç ay, Azərbaycan İnqilab Komitəsi bir neçə ay işləmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət yaratmaq ideyaları onların hələ Rusiya Dövlət Dumalarında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı da işi buna doğru apardı.

## *ƏDƏBİYYAT*

1.Babayev A., Babayev H. Müstəqil dövlətimiz və parlamentimiz. Bakı, MM nəşri, 2004, 553 s.
2.Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Azərnəşr, 1992, 276 s.
3.Əliyeva L. Azərbaycan: Demokratik ənənələr və müasirlik // Dirçəliş jurnalı 1998, № 10, s. 54-60.
4.Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli Respublika // Dirçəliş jurnalı 2002, № 49, s. 111-125.
5.Mehdiyev R. Azərbaycan Respublikası 1991-2001. Bakı, XXI - Yeni Nəşrlər evi, 2001, 360 s.
6.Musayev M. Parlament və Kəndlilər 100 ildə (1905-2005). Bakı, Nurlar, 2008, 272 s.
7.Paşayev A. Cümhuriyyətin görkəmli xadimi diplomat Əlimərdan bəy Topçubaşov // Dirçəliş jurnalı, 2003, № 64, s. 103-113.
8.Şükürov K. Azərbaycan tarixi. Üç hissədə. II hissə. Ən qədim zamanlardan bizim günlərədək: Dövrlər, sinxronlaşdırılmış cədvəllər. Üçüncü nəşr. Bakı, Bakı Universiteti, 2004. 380 s.
9.Аскеров Ф.Т., Кравченко А.С. Распределение влияния фракций в Государственных думах Российской империи (1905-1917 гг.). Москва. Препринт ГУ ВШЭ, 2005. 20 с
10.Калынычев. Ф.И Госурарственная Дума в России. Москва. Госюриздат, 1957, 647 с.
11.Сеидзаде Д. Б. Азербайджанские депутаты в Государственной думе России. Баку. Азернешр, 1991, 139 с.
12.Государственная Дума второй созыв. Обзор деятельности комиссии и отделов. С-Петербург. Государственная типография. 1907, 613 с.
13.Государственная Дума второй созыв. Стенографические отчеты 1907. сессия вторая. Том 1. заседания 1-30. (II.20-IV.30) С-Петербург. Государственная типография. 1907, 311 с.
14.Государственная Дума. Указатель к Стенографическим отчетамь (часть I - III). Третий созывь. Сессия I 1907-1908 гг. Заседания 1-98. С-Петербург. Государственная типография. 1908, 672 с.
15.Государственная Дума. Обзор деятельности комиссии и отделов. Четвертый созыв. Сессия II 1913-1914. Петроградь. Государственная типография. 1915, 604 с.
16.www.tomskhistory.lib.tomsk.ru

**ТУРАЛ ИСЛАМОВ**
*Аспирант Бакинского Государственного Университета*

## ИЗ ИСТОРИИ ПАРЛАМЕНТАРИЗМА В АЗЕРБАЙДЖАНЕ

В настоящей статье освещается деятельность азербайджанских депутатов в Государственных Думах России в начале XX столетия. Хотя в Азербайджане история парламентаризма, по сравнению с европейским странами, охватывает короткое время, тем не менее, на протяжении всего XX столетия она обогатилась своим политическим разнообразием и национальными особенностями. Формирование традиции национального парламентаризма, а также принципов государственности началось с XX столетия в связи с выборами азербайджанских депутатов в Думу.

В статье также освещается деятельность депутатов на заседаниях и в комиссиях Думы.

**TURAL ISLAMOV**
*Post-graduate Student Baku State University*

## FROM THE HISTORY OF PARLIAMENTARISM IN AZERBAIJAN

The Article discusses activities of Azerbaijani members of parliament at the Russian State Duma in the beginning of XX century. While the parliament in Azerbaijan has not been accounted for centuries as in certain European countries, it was enriched by the national peculiarities and political motley in the twenties century. In the beginning of the twenties century, national parliamentary traditions emerged and started to form multilaterally in the spirit of statehood and patriotism with the election of our members of parliament to Dumas.

The article also extensively investigates the participation of Azerbaijani members of parliament in State Duma meetings and commissions.

***Rəyçilər: t.e.n.A.Rzayev, t.e.d.İ.Zeynalov.***
***BDU-nun «Azərbaycan tarixi (humanitar fakültələr üzrə)» kafedrasının 23 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məslhət görülmüşdür (protokol №03).***